**İstiqlal ya Federalism (2): Sual budur nədir planımız?**

Öncədən yazdığım kimi bütöv, müstəqil ve güclü Azərbaycanda yaşamaq mənim böyük arzımdır və yəqin ki bu böyük arzı və amaca real və əməli (praktik) yolları göstərməklə xalqımızın daha böyük hissəsinə bu amacın bir xəyal olmayıb və əl tapmalı olmağın inandırabılərik. Söz hədəfləriməzə çatmaq üçün mekanizmlərdən gedir, bu hədəflərə çatmaq üçün lazım olan planlardan yazmaq istəyirəm. Yazdığım keçmiş yazıda bu hədəfə çatmaq üçün irəli sürülmüş iki yoldan yəni Federalism və vasitəsiz İstiqlal yolundan söz açıb və Federalsimi xalqın potansiyellərinə uyğun ilk addım tanıtdıraraq, bu mərhələdən qaçaraq istiqlal istəyənləri tənqid etmişdim. **Mənim bu tənqid və sorularıma hələlik cavab almamağıma baxmayaraq, bu mövzünü istiqlala çatmaq üçün lazım olan mekanizmlər və planlar haqında davam etdiririm. Yəqin iki vasitəsiz istiqlalçıların bir münasib və riski az olan planı irəli sürməklə conservativ federalçıların bir çoxun öz sınıflarına çəkəbilərlər.** Sürətli qaçan plansız istiqlalçını əsası addımlar atan Federalçıdan gələcəkdə geridə qalmış və bəlkədə Federalçının yolunada manələr törədərək ikisin də dərrənin dibində görürəm. Yadımızda olsun biz bir illik istiqlal və ardinca 70 il əsarət istəmirik. Bir federalçının da planı olmalıdır ancaq mən federalismi daha çox əməli bir yol gördüymə görə hələlik istiqlalçılara toxunmaq istiyirəm , ancaq federalismi tənqid edən yazıları gözləyirəm.

**Bir düzgün planda biz (1) hedəfi yaxşı tanımalıyıq, (2) əldə olan imkanlar və mənbələri yaxşı tanımalyıq, (3) bu mənbələrdən nəzaman və necə istifadə etməyimizi bilməliyik.** Örnək olaraq gəlirləri xərclərindən az olan İran cəmiyətinin ümümiyəti ev sahıbı olmaq istəyəndə dəqiq bir planları olamlıdır. Alcağım ev hardadır və neçə otağı var? yığdığım pullar nəqədər, qohum aşına dan neçə alabilərm, bankdan neçə keredit almalıyam?, borclarımı nə zaman və hər dəfə nə qədər ödəyəbilərəm? Bu hisab kitabdan sonra olub ki bəzən xəyallarımzdan hələlik bir neçə qat aşağı yenib xəyal etdiyimiz vila dan bir otaqlı kiçik bir apartemanda yaşamağa qərar vermişik.Mənim həyat yoldaşım nə zaman ev sahıbı olacağıq tənqidinə məruz qaldığım zamanda biləsinə consevativ olaraq sən mənə plan getir həmin sabah başlayaq cəvabın verərəm!. Bəlkə bu ev almaq məsələsi çoxdan bəri xaricdə yaşayan və orda olan təshilatlardan istifadə edib rahatcasına ev alabilən diasporamıza çox da tanış bir misal deyildi !. Nə isə, indi biz birləşmiş və bağımsız Azərbaycan vilasına daşınmaq istəyirik. Çox gözəl ama planımız nədir? Evvəl bu evə köçüb sonra bir ildən sonra biləlrindən borc aldığımız adamları buldozer ilə qapımızın önündə görəcəyik mi?! Ya əvvəldən necə borclamızı ödəməyi planlaşdırmışıq?

**Bir istiqlalçı bu suallara cavab verməlidir**(istiqlalçı deyəndə vasitəsiz istiqlalçını yanı keçid bir dövrü keçirtməmiş istiqlala çatmaq istəyənləri qəsd edirəm):

**1. Müstəqil Azərbaycan deyəndə, nədir onun sərhədləri? Zəngan, Qəzvin, ya da Tehranı da şamıl olacaq?!**

**2. Mənbələr və imkanlarımız nədir?** Yəqin ki xalqımızın gücü ən biriminci və önəmlisidir. Başqa nələr lazımızdır medialar, TV, Radio, Nəşriyat? Sərmayəmiz hardan təmin olunacaq? və sayirə.
Məncə insanı sərmayəmizi üç böyük hissəyə böləbilərik. **(1)Qələm və fikir vasitəsilə xalqın kültürsəl inkişafına yardım edərək Azərbaycan oyanış hərkatında rol oynayanlar.** Gerçəkdəndə bunlar ən ağır və subatlı addımları götürürlər.**(2) Siasi təşkilatlar** ya da müstəqil olan daha çox məsələni siyasi baxımdan yönəldənlər və xalqa lider kimi namizəd olanlar.**(3) Biriminci və ikiminci hissədə yerləşməyən Azərbaycan xalqı** ki bunuda quzey güney hissəsinə bölüb və iki hissənin potansiyelin araşdırmalıyıq. Güney hissəsində də milli məsələyə həsas olanlar da var ,bu məsləyə marqalnmayıb hətta asimilə olanlar və təəsüflə öz milliyətlərindən utanıb onu danan da var. Milli məsəliyə həsas olanlar da iki hissədirlər fars şovenist və öz varlıqların və milli problemi dərincəsinə anlayanlar və başqa tərəfdə sadəcə fars təhqirlərinə kövrənib fars millətilə zid düşənlər. Bozqurdlar da var mülayim adamlarda var.
Qayıdaq ikinci hissə yani siyasətçilərimizə, Bu hissənin vəzifəsi ağırdır. Onlar üç hissəni yaxşı tanıyıb onları bir ortaq hədəf çərçivəsində səfərbər etməlidirlər. **Üç hissə xüsusən xalqın istək və potansiyelin dəqiq olaraq tanıyıb və bu potansiyellərlə uyğun xalqın istəyinə cəhət verməlidirlər.** Nə yavaş nə yeyin. **Xalqımız istiqlalçıdır deyə bunu da təyin etməliyik üçümüncü hissənin hansı bölümü,** milli problemi dərincəsinə anlayanlar ya yalız təhqirlərə kövrələnlər? Bu iki növ istiqlalçı fərqli potansiyelləri varlarıdı. Bir lider dəqiq olaraq bu bölümlər xalqın neçə fayızıdır bilməlidir. Hansı qüvvədən nə zaman istifadə etmyini də bilməlidir. Siyasətçi bilməlidir ki daha real və potansiyellərlə uyğun şuarlarla daha cox saydığım üç hissədən öz çevrəsinə yığabilib və daha çox subatlı addımlar götürəbilər.
İndi bizim yenicə qurulan siyasi təşkilatlarımızı iki hissəyə bölmək olar: **Liderləri və adamlarının çoxu diasporadan qurulan** və **Liderləri və adamlarının çoxu güney ilə sıx əlaqələri olanlar**. **Biriminci bölüm daha çox ideal və xalqın potansiyel və istəklərinə uymayaraq düşünürlər ancaq xaricdə sərbəst vəziyətdən faydalanaraq daha çox səmərəli işlər görəbilirlər.** Sankı hələlik İran və Azərbaycan xalqının ruhiyat dəyişikliklər və gəlişmələrindən uzak qalaraq daha çox 25 il öncəyə uyğun olan yolları irəli sürürlər. **İkiminci bölüm daha real düşünürlər ancaq daha çox basqı altındadırlar və düşündükləri və deyəbildikləri və əməl edəbildikləri bir deyil**. Doğrudanda iki hissənin yaxınlaşmağı daha faydalı olabilər.
**İran çərçivəsində yaşayan xalqlarının 25 il ərzində dəyişikliklərin nəzərdə tutmalıyıq:** Bu xalqların nece bir inqilabçıdan 25 il sürədə bir reformçıya deyişmələrinin səbəbi nədir? Yenidən son 7 il reformçulardan ümüdsiz olaraq daha bir yeyin amma ortancıl mekanizm yanı refrandoma üz gətiməklərinin səbəbi nədir? Məncə aydındır : nə inqilabçı nə də reformçular xalqın potansiyellərilə uyğun hərəkət etmədilər. Biri yeyin birisidə yavaş. Bundan dərs almamalıyiq?!
Son yarım əsirdə çeşitli siayasi partiyalar və ideolgilərin yaranması və olnların çoxunun öz vədələrinə əməl etməməyi və hətta bəzən yalnız öz ya özgənin mənfəətləri fikrində olmaqarının aydınlaşması **xalqı siasətçilərə göre etimadsiz və siyasətdən qorxan eləyib.** Bir siyasətçi və lider bu xalqı necı səfərbər etməyidə düşünməlidir. Daha real və

xalqın isəyilə uyğun şuarlar və əməllər və bu mərhələdə başqa Azərbaycan oyanış və azadlıq hərəkat ilə birləşmək bu güvənəbilməməzliyə qarşı ilk addım olabilər.

**3. İstiqlalı nəcə qurub pərpa edəcəyik? (1) Dinc şəkildə refrandom ilə məsələn BMT nın yarıdımı ilə , (2) Xarıcı qüvvələrlə ya (3)** Silah ələ götürməklə? Ya da başqa bir yol var?

Biriminci halətdə İranın başqa xalqların xüsusilə şovenistləri necə bu refrandom qərarına razılaşdıracağiq? Razılaşırsalar da kimdir bu refrandomda səs vərən və nədir gözlənilən nəticə? Tehranda yaşayan asimilə olan Azərbaycanlılar da istiqlala müsbət olaraq rəy verəcəklər? Təbrizdə , Ərdəbildə və Urmiyədə yaşayanlar necə? Xalqımızın fikirlərin analiz etmışık? **Bu səs verməda qazanabilməsək nə olur? Bir daha səsimizi ucaldabilərik?**

İkninci halətdə indiyədək nə işlər görmüşük? **Hansı xarici qüvvə ilə müzakirə aparmışıq? Onlarla nələr alış veriş edəcəyik? Onlar bizim istiqlalımzla razılaşırlar mı?**

Üçümüncü şəkildə, **xalqımızın gercəkdən silah götürmək gücü var mı?** Onların 8 il iraq müharibəsi və 25 il molla rejimin yaraları toxdayıb mi? Onların düşüncələrində elə bir silah götürməyə dəyən müqqədəs bir hədəf yaranıbdır? Birdə silahlı mübarizə ilə nə qədər uğur qazanabilər?

Mən bir siyasətçi deyiləm ancaq politik və sosiyoloq və ekonomik analizlərin yerin boş görən yerdə əlimə qələm alıb bu sadə və əsasi suallari verməyi lazim görürəm. **İstiqlalçılardan da mənim bu yazdığım məqalələrə qanə edici cavablar və güclü analizlər gözləyirəm.**

Nə isə öncədən söylədiyim kimi mən federalsimi istiqlala qarşı yox, bəlkə Azərbaycan xalqına uyğun ilk addım görürəm. Buna görədə İstiqlalçılar və federalçıların bu günkü ziyan verici inadlarına bir səbəb görməyirəm. **Federalçıların bir addımı istiqalalçıların bir addımı kimi sayılabilər və istiqlalçıların vücudu sayəsində conservativ Federalçı hərəkati daha çox uğur qazanmağa şansı olabilər.** Bu mekanizmdə (mechanism) yalnız bir dəqiq və politik iş birliyi vasitəsilə işləyəbilər, Yani vaxtilə zəkicəsinə iki qurupun birbirinə dəstək vərmək və ortaq və birgə ilkin əsaslara və hədəflərə inanmaqları. İstiqlalçı və Federalçılardan təşkil tapılmlş Azərbaycan xalqın təmsil edən birləşmiş bir təşkilat ilk addim olabilər.

**İstiqlalçı, Federalçı və bütöv azərbaycan xalqının oyanış və azadliq ötrü çalışanlara uğurlar diləyirəm.**

**Yaşar Təbrizli**